**Mətbuat üçün açıqlama**

## İTM ictimai vəsaitlərə nəzarətin səmərəliliyinin artırılması mövzusunda seminar keçirmişdir

**Bakı** **19 May 2013-cü il**

19 may 2013-cü il tarixində Şərq Tərəfdaşlığı Vətəndaş Cəmiyyəti Forumunun Azərbaycan Milli Platforması ictimai vəsaitlərə nəzarətin səmərəliliyinin artırılması mövzusunda seminar təşkil etmişdir. Azərbaycan Milli Platformasının İdarə Heyətinin üzvü Fərid Məlikov II İşçi Qrupunun üzvləri tərəfindən Azərbaycanda kənar auditin səmərəliliyinin artırılması istiqamətində görülmüş işlər və fəaliyyətlər barədə görüş iştirakçılarına məlumat vermişdir.

Milli Platformanın sədri Qubad İbadoğlu kənar auditin əhəmiyyəti, eləcə də ictimai vəsaitlərin istifadəsində şəffaflığı və hesabatlılığı artırmaq və korrupsiya riskini azaltmaq üçün dövlət maliyyə institutlarının roluna dair təqdimatla çıxış etmişdir. Təqdimatdan sonra cənab İbadoğlu tədbir iştirakçılarının suallarını cavablandırmışdır.

Görüşün ikinci hissəsində cənab İbadoğlu büdcə proseslərinə dair mariflendirmə, o cümlədən xərclər üzərində səmərəli nəzarəti təşkil etmək məqsədi ilə vətəndaş cəmiyyəti təşkilatlarının potensialının və iştirakçılığının artırılması, eləcə də VCT ilə dövlət maliyyə institutları arasında dialoqun qurulması mövzusunda interaktiv müzakirə aparmışdır.

İqtisadi Tədqiqatlar Mərkəzinin konfrans zalında təşkil olunmuş tədbirdə Milli Platformaya üzv olan 18 təşkilatl nümayəndəsi iştirak etmişlər. Seminar Avropa Komissiyası tərəfindən maliyyələşdirilən İctimai Vəsaitlərə Effektiv Nəzarət Sistemi Layihəsi çərçivəsində keçirilmişdir.